# Azərbaycan Fransa zülmündən xilas olmaq istəyən xalqların himayədarıdır

**"Bu günlər bütün dünyanın diqqəti Azərbaycana yönəlmişdir. Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdi. Ölkəmizə 110 ölkədən 700 nümayəndənin gəlməsi forumun mötəbərliyindən və nüfuzundan xəbər verirdi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat bildirib ki, "Bakı Prosesi" dünyanın nüfuzlu siyasətçilərini, ziyalılarını, vətəndaş cəmiyyətinin nümayəndələrini bir araya gətirib: "Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanda tolerantlığın yüksək səviyyədə olması, hələ də bəzi Avropa dövlətlərinin neokolonializm siyasəti həyata keçirməsi və digər xalqlara müstəmləkə kimi yanaşmaları barədə danışdı. Dövlət başçımızın çıxışı dünyanın bir çox dövlətlərinin nüfuzlu, kütləvi informasiya vasitələrində ətraflı işıqlandırıldı. Ekspertlər Prezident İlham Əliyevin güclü siyasətçi, mahir diplomat, beynəlxalq hüquqa hörmətlə yanaşan, dövlətinin və xalqının milli maraqlarını hər şeydən üstün tutan bir lider olduğunu vurğuladılar".

Azərbaycanda mövcud olan tolerantlığın dünyaya bir nümunə olduğunu deyən Kamilə Əliyeva əlavə edib ki, ölkəmizdə müxtəlif dinə, dilə malik xalqların nümayəndələri bir ailə kimi yaşayırlar: "Azərbaycanda fəaliyyət göstərən bütün dini icmalara ölkə rəhbərliyi tərəfindən böyük diqqət və qayğı göstərilir. Vətən müharibəsi dövründə Azərbaycanda yaşayan bütün xalqlar öz Prezidentinin ətrafında sıx birləşdi. Onlar vahid vətənlərinin Azərbaycan olduğunu bütün dünyaya çatdırdılar. Məhz bu birlik nəticəsində Azərbaycan 30 il Ermənistan işğalında olan torpaqlarını azad etdi".

Deputatın sözlərinə görə, Prezident İlham Əliyev hər zaman beynəlxalq hüququn prinsiplərinə hörmətlə yanaşmaq siyasəti həyata keçirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar 30 il Azərbaycan torpaqlarının işğalda qalmasına göz yumdular. BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan ərazisindən qoşunlarının qeyd-şərtsiz çıxarılması barədə 4 qətnamə qəbul etsə də, buna səs verən dövlətlər sənədlərin icrası üçün heç bir iş görmədilər. Azərbaycan hər zaman sülhə, bərabərliyə, ədalətə, o cümlədən, bəşəriyyətin gələcəyinə müsbət təsir göstərən işlərə xidmət edən siyasət həyata keçirir. COP29 kimi dünyanın ən nüfuzlu tədbirinin Azərbaycanda keçirilməsi qərarı da Prezident İlham Əliyevin məqsədyönlü siyasətinə verilən böyük dəyərdir.

Müsahibimiz onu da qeyd edib ki, Azərbaycan həmişə dövlətlərin sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətlə yanaşıb, digər dövlətlərin və xalqların azad, müstəqil yaşamaq hüquqlarına malik olmaları siyasətini həyata keçirir: "Bəzi Qərb dövlətləri, xüsusən Fransa XXI əsrdə də müstəmləkəçilik, neokolonializm siyasəti həyata keçirir. Azərbaycan Fransa müstəmləkəsindən əziyyət çəkən dövlətlərə və xalqlara dəstək olur. Bakı Təşəbbüs Qrupu bu istiqamətdə uğurlu və davamlı tədbirlər həyata keçirir. Fransa müstəmləkəsindən əziyyət çəkən dövlət və xalqlar Azərbaycan dövlətini özlərinin ən böyük dəstəkçisi hesab edirlər və Qərb müstəmləkəsinə qarşı mübarizə aparırlar".

Kamilə Əliyeva həmçinin vurğulayıb ki, forumdakı çıxışı ilə Prezidentimiz Azərbaycanın müstəmləkəyə, neokolonializmə qarşı çıxan, tolerantlıq dəyərlərinə hörmətlə yanaşan bir dövlət olduğunu dünyaya bir daha nümayiş etdirdi.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 4 may, № 91.- S.10.